**Azərbaycan *Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında* Dövlət Avtomobil Nəqliyyatı Xidmətinin fəaliyyətinin təmin edilməsi haqqında**[1]

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq Azərbaycan *Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında* Dövlət Avtomobil Nəqliyyatı Xidmətinin fəaliyyətinin təmin edilməsi məqsədi ilə **qərara alıram:**

1. "Azərbaycan *Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında* Dövlət Avtomobil Nəqliyyatı Xidməti haqqında Əsasnamə" təsdiq edilsin (əlavə olunur).

2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki:

2.1. 15 gün müddətində Azərbaycan Respublikası Nəqliyyat Nazirliyinin Dövlət Avtomobil Nəqliyyatı Xidmətinin strukturunu və işçilərinin say həddini təsdiq etsin.

2.2. iki ay müddətində qüvvədə olan qanunvericilik aktlarının bu Fərmana uyğunlaşdırılması barədə təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.3. iki ay müddətində Azərbaycan Respublikası Nazirlər Kabinetinin və müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3. Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyinə tapşırılsın ki, bir ay müddətində Dövlət Avtomobil Nəqliyyatı Xidmətinin nəzarət funksiyalarını yerinə yetirən müfəttişlərinin xüsusi geyim formasının, fərqləndirmə nişanlarının təsvirini və onların daşınması qaydasını təsdiq etsin.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti və Azərbaycan Respublikasının *Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar* Nazirliyi bu Fərmandan irəli gələn digər məsələləri həll etsinlər.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 20 iyul 2011-ci il
№ 472

Azərbaycan Respublikası Prezidentinin
2011-ci il 20 iyul tarixli 472 nömrəli Fərmanı ilə
TƏSDİQ EDİLMİŞDİR

**Azərbaycan *Respublikasının* Nəqliyyat, *Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında* Dövlət Avtomobil Nəqliyyatı Xidməti haqqında**[2]

# Ə S A S N A M Ə

## I. Ümumi müddəalar

1. Azərbaycan *Respublikasının* Nəqliyyat, *Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında* Dövlət Avtomobil Nəqliyyatı Xidməti (bundan sonra - Xidmət) avtomobil nəqliyyatı sahəsində *(Bakı, Sumqayıt və Gəncə şəhərlərinin inzibati ərazisində avtomobil nəqliyyatı ilə müntəzəm şəhərdaxili sərnişindaşıma və taksi minik avtomobilləri ilə sərnişindaşıma istisna olmaqla)* dövlət tənzimləməsini, əhalinin və iqtisadiyyatın avtomobil nəqliyyatı ilə daşımalara və digər nəqliyyat xidmətlərinə ehtiyacının təmin olunmasına, beynəlxalq və ölkədaxili sərnişin və yük daşımalarına dair qayda və tələblərə, habelə bu sahədə Azərbaycan Respublikasının normativ hüquqi aktlarının və tərəfdar çıxdığı beynəlxalq müqavilələrin müddəalarına riayət edilməsinə dövlət nəzarətini həyata keçirən icra hakimiyyəti orqanıdır. [3]

2. Xidmət öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının qanunlarını, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri, Azərbaycan Respublikasının Nəqliyyat, *Rabitə və Yüksək Texnologiyalar* Nazirliyi (bundan sonra – Nəqliyyat, *Rabitə və Yüksək Texnologiyalar* Nazirliyi) haqqında Əsasnaməni, Azərbaycan Respublikası nəqliyyat, *rabitə və yüksək texnologiyalar* nazirinin əmr və sərəncamlarını və bu Əsasnaməni rəhbər tutur.[4]

3. Xidmət bu Əsasnamədə nəzərdə tutulan vəzifə və funksiyalarını Azərbaycan Respublikasının bütün ərazisində bilavasitə və öz yerli qurumları vasitəsilə həyata keçirir.

4. Xidmət öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən mərkəzi və yerli icra hakimiyyəti, yerli özünüidarəetmə orqanları, habelə qeyri-hökumət təşkilatları və digər qurumlarla qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

5. Xidmətin müstəqil balansı, qanunvericiliyə uyğun sərəncamında olan dövlət əmlakı, xəzinə və bank hesabları, üzərində Azərbaycan Respublikası Dövlət gerbinin təsviri, Azərbaycan Respublikası Nəqliyyat, *Rabitə və Yüksək Texnologiyalar* Nazirliyinin adı və öz adı həkk olunmuş möhürü, müvafiq ştampları və blankları vardır.

6. Xidmətin saxlanma xərcləri və fəaliyyəti Azərbaycan Respublikasının dövlət büdcəsi və qanunvericilikdə nəzərdə tutulan digər mənbələr hesabına maliyyələşdirilir.

7. Xidmətin aparatı Bakı şəhərində yerləşir.

## II. Xidmətin fəaliyyət istiqamətləri

8. Xidmətin fəaliyyət istiqamətləri aşağıdakılardır:

8.1. avtomobil nəqliyyatı sahəsində dövlət siyasətinin işlənib hazırlanmasında və bu sahədə normativ hüquqi tənzimləmənin həyata keçirilməsində iştirak edir;

8.2. avtomobil nəqliyyatı ilə sərnişin və yük daşımalarının inkişafı sahəsində tədbirlər görür;

8.3. beynəlxalq və ölkədaxili sərnişin və yük daşımalarını yerinə yetirən avtomobil nəqliyyatı subyektləri tərəfindən beynəlxalq norma və qaydalara, habelə Azərbaycan Respublikasının normativ hüquqi aktlarına riayət olunmasına nəzarət edir;

8.4. avtomobil nəqliyyatı ilə müntəzəm sərnişin daşımalarının təşkilini və bu sahədə dövlət sifarişinin formalaşdırılmasını təmin edir;

8.5. avtomobil nəqliyyatı ilə daşımaların vahid norma və qaydalar əsasında təhlükəsiz yerinə yetirilməsi üçün qanunvericilikdə müəyyən edilmiş qaydada tədbirlər görür;

8.6. qanunvericilikdə müəyyən edilmiş digər istiqamətlərdə fəaliyyət göstərir.

## III. Xidmətin vəzifələri

9. Xidmət bu Əsasnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq aşağıdakı vəzifələri yerinə yetirir:

9.1. avtomobil nəqliyyatı sahəsində dövlət siyasətinin və tənzimləməsinin işlənib hazırlanmasında Nəqliyyat, *Rabitə və Yüksək Texnologiyalar* Nazirliyinə təkliflər vermək, bu sahədə nəzərdə tutulan tədbirlərin icrasını təmin etmək;

9.2. avtomobil nəqliyyatı sahəsində proqramlara (tədbirlərə) və normativ hüquqi aktlara dair təkliflər (layihələr) hazırlayıb Nəqliyyat, *Rabitə və Yüksək Texnologiyalar* Nazirliyinə təqdim etmək, qəbul (təsdiq) olunduqdan sonra onların həyata keçirilməsini təmin etmək;

9.3. avtomobil nəqliyyatının subyektləri tərəfindən beynəlxalq və ölkədaxili sərnişin və yük daşımalarına dair qayda və tələblərə, habelə bu sahədə Azərbaycan Respublikasının normativ hüquqi aktlarının və tərəfdar çıxdığı beynəlxalq müqavilələrin müddəalarına riayət olunmasına nəzarət etmək;

9.4. avtomobil nəqliyyatı ilə sərnişin və yük daşımalarını yerinə yetirən vergi ödəyicilərinə məxsus avtonəqliyyat vasitələrinin qanunvericilikdə müəyyən olunmuş qaydada müvafiq fərqləndirmə nişanları ilə təmin etmək və bu sahədə aidiyyəti dövlət orqanı ilə birlikdə müvafiq normativ hüquqi aktların tələblərinə riayət olunmasına nəzarət etmək;

9.5. avtomobil nəqliyyatı sahəsində mövcud normativ hüquqi aktlar, texniki qaydalar və təlimatlar əsasında avtomobil nəqliyyatı ilə sərnişin və yük daşımalarının təhlükəsizliyinin təmin olunması üçün tədbirlər görmək;

9.6. beynəlxalq sərnişin və yük avtomobil daşımaları sahəsində Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrin müddəalarının yerinə yetirilməsini təmin etmək;

*9.6-1. avtomobil nəqliyyatı ilə beynəlxalq sərnişin və yük daşımaları fəaliyyətinin operatorunu uçota almaq;*[5]

9.7. Azərbaycan Respublikasının ərazisində beynəlxalq avtomobil daşımalarını tənzimləyən icazə sisteminin tətbiqini həyata keçirmək və bu sahədə müvafiq tələblərə və şərtlərə əməl olunmasına nəzarət etmək;

9.8. avtomobil nəqliyyatı ilə müntəzəm sərnişin daşımaları üzrə marşrut şəbəkəsini, marşrutların sxemini, həmin marşrutlarda istifadə olunacaq avtonəqliyyat vasitələrinin hərəkət cədvəlini, növünü və onlara dair tələbləri müəyyən etmək;

9.9. dövlət sifarişi əsasında avtomobil nəqliyyatı ilə müntəzəm şəhərdaxili (rayondaxili), şəhərlərarası (rayonlararası) və beynəlxalq marşrutlar üzrə sərnişin daşımalarına daşıyıcıları müsabiqə qaydasında cəlb etmək və müsabiqənin qalibləri ilə müvafiq müqavilə bağlamaq;

9.10. avtomobil nəqliyyatı ilə sərnişin və yük daşımalarını həyata keçirən daşıyıcılara qanunvericilikdə nəzərdə tutulmuş qaydada onların müraciəti əsasında xüsusi razılıq (lisenziya) verilməsi üçün müvafiq tədbirlər görmək, avtomobil nəqliyyatı ilə yük və sərnişin daşımalarının müvafiq növünə verilmiş xüsusi razılıq (lisenziya) şərtlərinə hüquqi şəxslərin və fərdi sahibkarların əməl etməsinə nəzarət etmək, xüsusi razılığın (lisenziyanın) ləğv edilməsi və ya qüvvəsinin dayandırılması (bərpası) barədə qanunvericiliyə uyğun qərarların qəbul edilməsi ilə əlaqədar Nəqliyyat*, Rabitə və Yüksək Texnologiyalar* Nazirliyinə təkliflər vermək;

9.11. avtomobil nəqliyyatı ilə sərnişin və yük daşımalarını yerinə yetirən avtonəqliyyat vasitələrinin qanunvericiliklə müəyyən edilmiş qaydada reysqabağı texniki müayinəsi, sürücülərin reysqabağı tibbi müayinəsi üçün müvafiq məntəqələri, o cümlədən rübdə bir dəfə həmin avtonəqliyyat vasitələrinin texniki yoxlanılmasını təşkil etmək, həmçinin bu sahədə nəzarəti həyata keçirmək;

9.12. avtomobil nəqliyyatı sahəsində fəaliyyət göstərən subyektlər tərəfindən avtomobil nəqliyyatı ilə sərnişin və yük daşınması qaydalarına əməl olunmasına, sərnişin və yük avtonəqliyyat vasitələrinin təhlükəsiz hərəkətinin təmin edilməsinə, qanunvericilikdə nəzərdə tutulmuş hallarda sərnişinlərin icbari sığortalanmasına, habelə mövcud tariflərə uyğun gediş haqlarının tətbiqi qaydalarına riayət olunmasına nəzarət etmək;

9.13. qanunvericilikdə müəyyən edilmiş qaydada taksi minik avtomobilləri ilə sərnişin daşınması qaydalarına əməl olunmasına nəzarət etmək;

9.14. müəyyən olunmuş qaydada avtobus və taksi minik avtomobili dayanacaqlarının, həmçinin avtovağzalların (avtostansiyaların) pasportlaşdırılmasını həyata keçirmək və avtovağzalların (avtostansiyaların) göstərdikləri xidmətlərin səviyyəsinin onlara verilmiş pasportda müəyyən olunan kateqoriyalara uyğunluğuna nəzarət etmək;

9.15. avtomobil nəqliyyatı sahəsində normativ hüquqi aktların, texniki norma və qaydaların tələbləri pozulduğu hallarda qanunvericilikdə nəzərdə tutulmuş tədbirlər görmək;

9.16. Xidmətin fəaliyyət istiqamətlərinə aid məsələlər üzrə qəbul olunmuş normativ hüquqi aktların və sahə standartlarının icrasını təmin etmək və onlara riayət olunmasına nəzarət etmək;

9.17. avtomobil nəqliyyatı infrastrukturu obyektlərinin, o cümlədən avtovağzalların (avtostansiyaların), dayanacaq məntəqələrinin, avtomobil duracaqlarının, terminalların və digər qurğuların, habelə avtonəqliyyat vasitələrinə ~~təminatlı~~ texniki xidmət göstərən texniki təmir stansiyalarının *(sahələrinin)*, yanacaqdoldurma məntəqələrinin yerləşdirilməsinə, yaxud *təyinatı avtomobil nəqliyyatının digər infrastruktur obyektinə dəyişdirilməklə* yenidən qurulmasına müəyyən olunmuş qaydada rəy bildirmək;[6]

9.18. avtonəqliyyat vasitələrinə ~~təminatlı~~ texniki xidmət göstərən texniki təmir sahələrinin, stansiyalarının fəaliyyətinin avtomobil nəqliyyatı və yol hərəkəti haqqında qanunvericilikdə müəyyən olunmuş tələblərə uyğunluğunu səlahiyyəti daxilində yoxlamaq;[7]

9.19. müəyyən olunmuş qaydada avtomobil nəqliyyatı sahəsində ətraf mühitin qorunmasına dair təkliflər vermək;

9.20. qanun pozuntularına yol vermiş şəxslərin əməllərində cinayət məsuliyyəti yaradan hallar olduqda, materialları hüquq mühafizə orqanlarına göndərmək;

9.21. qanunvericilikdə nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə baxmaq, təqsirkar şəxslərə qanunvericilikdə müəyyən edilmiş qaydada inzibati tənbeh tədbirləri tətbiq etmək;

9.22. avtomobil nəqliyyatının səfərbərlik hazırlığının lazımi səviyyədə saxlanmasını təmin etmək üçün zəruri tədbirlər görmək;

9.23. Xidmətin fəaliyyətinin təşkili ilə bağlı ayrılan büdcə vəsaitindən, qrantlardan və digər maliyyə vəsaitindən təyinatı üzrə səmərəli istifadə olunmasını təmin etmək;

9.24. tabeliyindəki qurumların fəaliyyətinin əlaqələndirilməsi və təkmilləşdirilməsi istiqamətində Nəqliyyat, *Rabitə və Yüksək Texnologiyalar* Nazirliyinə təkliflər vermək və tədbirlər görmək;

9.25. Xidmətin yerli qurumlarının və tabeliyindəki digər qurumların fəaliyyətinə nəzarət etmək, onların maddi-texniki və sosial bazasının möhkəmləndirilməsi barədə Nəqliyyat, *Rabitə və Yüksək Texnologiyalar* Nazirliyinə təkliflər vermək;

9.26. Xidmətin sərəncamındakı dövlət əmlakını və maliyyə vəsaitlərini qanunvericilikdə müəyyən olunmuş qaydada idarə etmək;

9.27. Xidmətin fəaliyyəti ilə bağlı dövlət sirri təşkil edən məlumatların və digər məxfi informasiyanın qorunub saxlanmasını təmin etmək;

9.28. Xidmətin fəaliyyəti ilə bağlı daxil olan ərizə və şikayətlərə baxmaq və qanunvericilikdə müəyyən edilmiş qaydada tədbirlər görmək;

9.29. Xidmətin fəaliyyət istiqamətlərinə uyğun olaraq qanunvericilikdə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.

## IV. Xidmətin hüquqları

10. Öz vəzifələrini yerinə yetirmək üçün Xidmətin aşağıdakı hüquqları vardır:

10.1. Azərbaycan Respublikasında avtomobil nəqliyyatının inkişafında, yük və sərnişin daşımaları sahəsində vahid dövlət siyasətinin formalaşdırılmasında və həyata

keçirilməsində iştirak etmək və bu sahədə Nəqliyyat, *Rabitə və Yüksək Texnologiyalar* Nazirliyinə təkliflər vermək;

10.2. fəaliyyət istiqamətləri üzrə və digər sahələrə aid normativ hüquqi aktların və normativ sənədlərin layihələrinə dair Nəqliyyat, *Rabitə və Yüksək Texnologiyalar* Nazirliyinə rəy və təkliflərini vermək;

10.3. fəaliyyət istiqamətləri üzrə Azərbaycan Respublikasının beynəlxalq müqavilələrə tərəfdar çıxması barədə təkliflər vermək;

10.4. vəzifə və funksiyalarını həyata keçirmək üçün dövlət və yerli özünüidarəetmə orqanlarına, təsərrüfat subyektlərinə, vəzifəli şəxslərə, fiziki və hüquqi şəxslərə zəruri məlumatlar (sənədlər) barədə sorğu vermək və onlardan həmin məlumatları (sənədləri), habelə avtomobil nəqliyyatı haqqında qanunvericiliyin pozulması ilə bağlı yazılı (şifahi) izahatlar almaq;

10.5. fəaliyyət istiqamətlərinə uyğun olaraq analitik materiallar hazırlamaq, rəy vermək, təhlillər, ümumiləşdirmələr, təhqiqatlar aparmaq, təkliflər vermək;

10.6. avtomobil nəqliyyatı ilə sərnişin və yük daşımalarında baş vermiş qəza hadisələrinin səbəblərinin araşdırılmasında iştirak etmək;

10.7. avtomobil nəqliyyatı haqqında qanunvericiliyə riayət edilməsinə, nəqliyyat xidmətlərinin keyfiyyətinə və təhlükəsizliyinə dövlət nəzarətini təmin etmək məqsədi ilə araşdırmalar və monitorinqlər keçirmək, aşkar olunmuş qanun pozuntuları ilə bağlı aktlar tərtib etmək və onların aradan qaldırılmasını qanunvericilikdə müəyyən edilmiş qaydada tələb etmək;

10.8. avtomobil nəqliyyatı haqqında qanunvericiliyin tələblərini pozan şəxslər barəsində qanunvericilikdə müəyyən edilmiş tədbirlər görmək;

10.9. qanunvericilikdə müəyyən edilmiş sərnişin və yük daşımaları qaydalarını pozan avtonəqliyyat vasitələrini saxlamaq, qanunvericilikdə nəzərdə tutulan hallarda öz xidməti vəzifələrini yerinə yetirmək üçün avtomobil nəqliyyatının infrastruktur obyektlərinə daxil olmaq və zəruri sənədlərlə tanış olmaq;

10.10. öz səlahiyyətinə aid məsələlərlə əlaqədar qanunvericilikdə müəyyən edilmiş qaydada məhkəmələrə iddialarla (ərizələrlə) müraciət etmək və məhkəmələrdə öz adından iştirak etmək;

10.11. beynəlxalq və ölkədaxili sərnişin və yük daşımalarına dair qayda və tələblərə, habelə bu sahədə Azərbaycan Respublikasının normativ hüquqi aktlarının və tərəfdar çıxdığı beynəlxalq müqavilələrin müddəalarına riayət olunmasına nəzarətin həyata keçirilməsi ilə əlaqədar qanunvericiliyə uyğun olaraq səlahiyyətinə aid edilmiş məsələlər üzrə müvafiq sənədləri yoxlamaq;

10.12. beynəlxalq avtomobil daşımaları sahəsində Azərbaycan Respublikasının beynəlxalq müqavilələrinə əsasən icazələrin mübadiləsi üzrə kvotaların müəyyən edilməsi ilə əlaqədar Nəqliyyat, *Rabitə və Yüksək Texnologiyalar* Nazirliyinə təkliflər vermək;

10.13. Xidmətin bu Əsasnamədə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun struktur bölmələrinin, yerli qurumlarının və tabeliyindəki digər qurumların yaradılması,

yenidən təşkili və ya ləğvi barədə Nəqliyyat, *Rabitə və Yüksək Texnologiyalar* Nazirliyinə təkliflər vermək;

10.14. Xidmətin fəaliyyət istiqamətləri üzrə peşəkar kadr və mütəxəssislərin hazırlanması və ixtisaslarının artırılması işini təşkil etmək;

10.15. öz vəzifələrini icra edərkən hüquq mühafizə və digər dövlət orqanları ilə qarşılıqlı əlaqədə fəaliyyət göstərmək;

10.16. beynəlxalq təşkilatlarla, xarici dövlətlərin müvafiq orqanları ilə əməkdaşlıq və təcrübə mübadiləsi etmək;

10.17. Xidmətin səlahiyyətinə aid edilmiş məsələlərin tədqiq edilməsi məqsədilə elmi tədqiqat müəssisələrini və digər təşkilatları, habelə fəaliyyət istiqamətlərinə aid olan məsələlərin həlli və işlərin görülməsi üçün müqavilə əsasında xarici və yerli mütəxəssisləri, ekspertləri, məsləhətçiləri, tərcüməçiləri işə cəlb etmək;

10.18. Xidmətin fəaliyyəti ilə əlaqədar konfranslar, seminarlar və digər tədbirlər keçirmək və bu tədbirlərdə iştirak etmək;

10.19. səlahiyyətinə aid məsələlər üzrə komissiyalar, işçi qrupları yaratmaq;

10.20. qanunvericilikdə müəyyən olunmuş qaydada dövri mətbuat orqanı təsis etmək, xüsusi bülletenlər və digər nəşrlər buraxmaq;

10.21. Xidmətin fəaliyyət istiqamətlərinə uyğun olaraq qanunvericilikdə müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

## V. Xidmətin fəaliyyətinin təşkili

11. Xidmətin aparatı, yerli qurumları və tabeliyindəki digər qurumlar Xidmətin vahid sistemini təşkil edir.

12. Xidmət öz fəaliyyətini aparatı, yerli qurumları və tabeliyindəki digər qurumlar vasitəsilə həyata keçirir.

13. Müəyyən edilmiş əməyin ödənilməsi fondu və işçilərin say həddi daxilində Xidmətin aparatının və tabeliyindəki qurumların strukturunu, ştat cədvəlini və xərclər smetasını Nəqliyyat, *Rabitə və Yüksək Texnologiyalar* Nazirliyi təsdiq edir.

14. Xidmət müvafiq büdcə vəsaitinin sərəncamçısıdır və həmin vəsaitdən Nəqliyyat, *Rabitə və Yüksək Texnologiyalar* Nazirliyinin təsdiq etdiyi icmal smetalara əsasən təyinatı üzrə istifadə edir.

15. Xidmətə Azərbaycan Respublikasının nəqliyyat, *rabitə və yüksək texnologiyalar* naziri tərəfindən vəzifəyə təyin və vəzifədən azad olunan rəis rəhbərlik edir.

16. Xidmətə həvalə edilmiş vəzifələrin yerinə yetirilməsinə və hüquqların həyata keçirilməsinə görə rəis şəxsən məsuliyyət daşıyır.

17. Xidmət rəisinin Azərbaycan Respublikasının nəqliyyat, *rabitə və yüksək texnologiyalar* naziri tərəfindən vəzifəyə təyin və vəzifədən azad olunan iki müavini vardır.

18. Xidmətin aparatının struktur bölmələrinin rəhbərlərini, həmçinin xidmətin yerli qurumlarının və tabeliyindəki digər qurumların rəhbərlərini Azərbaycan

Respublikasının nəqliyyat, *rabitə və yüksək texnologiyalar* naziri vəzifəyə təyin və vəzifədən azad edir.

19. Xidmətin nəzarət funksiyalarını yerinə yetirən müfəttişlərinin Nəqliyyat, *Rabitə və Yüksək Texnologiyalar* Nazirliyi tərəfindən təsdiq edilmiş xüsusi geyim formasını və fərqləndirmə nişanlarını daşımaq hüququ vardır.

20. Bu Əsasnamənin 10.9-cu bəndində nəzərdə tutulmuş səlahiyyətləri Xidmətin nəzarət funksiyalarını yerinə yetirən müfəttişləri qanunvericilikdə müəyyən edilmiş qaydada xidməti vəsiqəni təqdim etməklə həyata keçirirlər.

21. Xidmətin rəisi:

21.1. Xidmətin fəaliyyətini təşkil edir və ona rəhbərlik edir;

21.2. öz müavinləri arasında vəzifə bölgüsü aparır, onların məsuliyyət dairəsini və səlahiyyətlərini müəyyən edir;

21.3. Xidmətin aparatının və yerli qurumlarının əməkdaşlarını vəzifəyə təyin və vəzifədən azad edir;

21.4. Xidmətin maliyyə-təsərrüfat fəaliyyətinə rəhbərlik edir;

21.5. Xidmətin yerli qurumlarının xərclər smetasını təsdiq edir;

21.6. Xidmətin struktur bölmələrinin və yerli qurumlarının əməkdaşlarına münasibətdə qanunvericilikdə nəzərdə tutulmuş həvəsləndirmə və intizam tənbehi tədbirləri görür;

21.7. Xidmətin fəaliyyət sahəsinə aid məsələlərə dair normativ hüquqi aktları müəyyən olunmuş qaydada təsdiq edilmək üçün Nəqliyyat, *Rabitə və Yüksək Texnologiyalar* Nazirliyinə təqdim edir;

21.8. Xidmətin aparatının, yerli qurumlarının və tabeliyindəki digər qurumların fəaliyyətinə dair əmr, sərəncam və göstərişlər verir, normativ hüquqi aktların icrasını təşkil edir və nəzarəti həyata keçirir;

21.9. müvafiq vəzifələrin yerinə yetirilməsi məqsədilə Xidmət üçün nəzərdə tutulmuş büdcə vəsaitinin təyinatı üzrə istifadəsi proqramlarını və xərclər smetalarını təsdiq olunmaq üçün Nəqliyyat, *Rabitə və Yüksək Texnologiyalar* Nazirliyinə təqdim edir;

21.10. Xidmətin fəaliyyətinə dair məlumat və hesabatlar hazırlayıb Nəqliyyat, *Rabitə və Yüksək Texnologiyalar* Nazirliyinə təqdim edir;

21.11. Xidmətə dövlət büdcəsindən ayrılmış vəsaitin xərclənməsinə dair hesabatları mütəmadi olaraq Nəqliyyat, *Rabitə və Yüksək Texnologiyalar* Nazirliyinə təqdim edir;

21.12. Xidməti bütün dövlət orqanları, yerli özünüidarəetmə orqanları, habelə kommersiya və qeyri-kommersiya təşkilatları ilə, fiziki şəxslərlə münasibətlərdə və məhkəmələrdə etibarnaməsiz təmsil edir;

21.13. Xidmətin aparatının struktur bölmələrinin əsasnamələrini təsdiq edir, yerli qurumlarının və tabeliyindəki digər qurumların əsasnamələrinin və ya nizamnamələrinin layihələrini hazırlayır və təsdiq olunmaq üçün müvafiq qaydada Nəqliyyat, *Rabitə və Yüksək Texnologiyalar* Nazirliyinə təqdim edir;

21.14. Xidmətin fəaliyyəti ilə əlaqədar beynəlxalq əməkdaşlıqda öz səlahiyyəti daxilində Nəqliyyat, *Rabitə və Yüksək Texnologiyalar* Nazirliyinin adından iştirak edir;

21.15. Azərbaycan Respublikasının qanunvericiliyinə, Azərbaycan Respublikası nəqliyyat, *rabitə və yüksək texnologiyalar* nazirinin əmr və sərəncamlarına, bu Əsasnaməyə uyğun olaraq digər səlahiyyətləri həyata keçirir.

22. Xidmətin rəisi öz vəzifəsini yerinə yetirə bilmədikdə, onun səlahiyyətlərini Azərbaycan Respublikası nəqliyyat, *rabitə və yüksək texnologiyalar* nazirinin əmri ilə müvəqqəti olaraq müavinlərdən biri həyata keçirir.

23. Xidmətin səlahiyyətinə aid olan avtomobil nəqliyyatı sahəsində mühüm məsələlərin həlli üçün Xidmətin rəisindən, onun müavinlərindən, Xidmətin aparatının, yerli qurumlarının və tabeliyindəki digər qurumların rəhbərlərindən ibarət Şura yaradılır.

24. Şura üzvlərinin sayını və tərkibini, təşkili və fəaliyyət qaydalarını Xidmətin təqdimatı əsasında Azərbaycan Respublikasının nəqliyyat, *rabitə və yüksək texnologiyalar* naziri müəyyən edir.

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

1. 23 iyun 2016-cı il tarixli **971** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 26 iyun 2016-cı il, № 137, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 6, maddə 1067)**
2. 30 noyabr 2016-cı il tarixli **1134** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 8 dekabr 2016-cı il, № 272, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, № 11, maddə 1841)**
3. 19 sentyabr 2018-ci il tarixli **277** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, №9 , maddə 1840)**
4. 11 mart 2020-ci il tarixli **955** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 12 mart 2020-ci il, № 55)**

## FƏRMANA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

[1] 19 sentyabr 2018-ci il tarixli **277** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, №9 , maddə 1840)** ilə fərmanın adında, preambulasında, 1-ci və 4-cü hissələrində "**Nəqliyyat**" sözü "**Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar**" sözləri ilə əvəz edilmişdir.

11 mart 2020-ci il tarixli **955** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 12 mart 2020-ci il, № 55)** ilə fərmanın adında, preambulasında (ikinci halda) və 1-ci hissəsində "**Respublikası**" sözü "**Respublikasının**" sözü ilə və "**Nazirliyinin**" sözü "**Nazirliyi yanında**" sözləri ilə əvəz edilmişdir.

[2] 19 sentyabr 2018-ci il tarixli **277** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, №9 , maddə 1840)** ilə "Azərbaycan Respublikası Nəqliyyat Nazirliyinin Dövlət Avtomobil Nəqliyyatı Xidməti haqqında

Əsasnamə"nin adında və mətn üzrə "**Nəqliyyat**" sözündən sonra "**, Rabitə və Yüksək Texnologiyalar**" sözləri əlavə edilmişdir.

11 mart 2020-ci il tarixli **955** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 12 mart 2020-ci il, № 55)** ilə "Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin Dövlət Avtomobil Nəqliyyatı Xidməti haqqında Əsasnamə"nin adında və 1-ci hissəsində "**Respublikası**" sözü "**Respublikasının**" sözü ilə və "**Nazirliyinin**" sözü "**Nazirliyi yanında**" sözləri ilə əvəz edilmişdir.

[3] 23 iyun 2016-cı il tarixli **971** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 26 iyun 2016-cı il, № 137, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 6, maddə 1067)** ilə "Azərbaycan Respublikası Nəqliyyat Nazirliyinin Dövlət Avtomobil Nəqliyyatı Xidməti haqqında Əsasnamə"nin 1-ci bəndində "**sahəsində**" sözündən sonra "(**Bakı, Sumqayıt və Gəncə şəhərlərinin inzibati ərazisində avtomobil nəqliyyatı ilə müntəzəm şəhərdaxili sərnişindaşıma və taksi minik avtomobilləri ilə sərnişindaşıma istisna olmaqla)"** sözləri əlavə edilmişdir.

[4] 19 sentyabr 2018-ci il tarixli **277** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, №9 , maddə 1840)** ilə "Azərbaycan Respublikası Nəqliyyat Nazirliyinin Dövlət Avtomobil Nəqliyyatı Xidməti haqqında Əsasnamə"nin 2-ci, 15-ci, 17-ci, 18-ci hissələrdə, 21.15-ci bənddə, 22-ci və 24-cü hissələrdə "**nəqliyyat**" sözündən sonra "**, rabitə və yüksək texnologiyalar**" sözləri əlavə edilmişdir.

[5] 11 mart 2020-ci il tarixli **955** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 12 mart 2020-ci il, № 55)** ilə "Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin Dövlət Avtomobil Nəqliyyatı Xidməti haqqında Əsasnamə"yə yeni məzmunda 9.6-1-ci bənd əlavə edilmişdir.

[6] 30 noyabr 2016-cı il tarixli **1134** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 8 dekabr 2016-cı il, № 272, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, № 11, maddə 1841)** ilə 9.17-ci bənddən "**təminatlı**" sözü çıxarılmışdır və həmin bəndə "**stansiyalarının**" sözündən sonra "**(sahələrinin)**" sözü, "**yaxud**" sözündən sonra "**təyinatı avtomobil nəqliyyatının digər infrastruktur obyektinə dəyişdirilməklə**" sözləri əlavə edilmişdir.

[7] 30 noyabr 2016-cı il tarixli **1134** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 8 dekabr 2016-cı il, № 272, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, № 11, maddə 1841)** ilə 9.18-ci bənddən "**təminatlı**" sözü çıxarılmışdır.